## Aksizli mallar üzrə Baş Gömrük İdarəsində yaradılmış İctimai Şuranın üzvləri

| S/n | Adı, Soyadı və Atasının adı | Vəzifəsi |
|---|---|---|
| 1. | Həsən Eyubov Nəbi oğlu | Baş idarənin rəisi |
| 2. | Aftandil Abdullayev Qafar oğlu | "Gömrük Prosedurları və Ödənişləri" şöbəsinin rəisi |
| 3. | Rauf Əliyev Əli oğlu | "Aksiz Markalarına Nəzarət" şöbəsinin rəisi |
| 4. | Müşviq Mehdiyev Qulu oğlu | "Əməliyyat və Təhqiqat" şöbəsinin rəisi |
| 5. | Həsən İsmayılov | "İmprotex Motors" MMC-nin baş direktoru |
| 6. | Nasir Seyidzadə | "Hyundai Avto" nun direktoru |
| 7. | Pərviz Qafarlı | "İSR Avto" nun baş direktoru |
| 8. | Ceyhun Abbasov | "Avrora" firmasının direktoru |
| 9. | Elman Cavanşir | "İmeks" MMC-nin direktoru |
| 10. | Əliyev B.M. | "Göygöl Şərab-2" MMC-nin direktoru |

**Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi**
**Aksizli mallar üzrə Baş Gömrük İdarəsi**

**«Aksizli mallar üzrə Baş Gömrük İdarəsi tərəfindən Azərbaycan Respublikasının diplomatik xidmət əməkdaşlarının və diplomatik xidmət orqanlarının inzibati-texniki xidmətini həyata keçirən şəxslərin və Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin Diplomatik Nümayəndəliklərin Mühafizə İdarəsinin hərbi qulluqçularının xaricdə işlədikləri dövrdə əldə etdikləri avtonəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsinin təkmilləşdirilməsi haqqında» Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin 08 iyun 2017-ci il tarixli 100/110 nömrəli sərəncamının müzakirə olunmasına həsr olunmuş İctimai Şuranın iclasının**

**PROTOKOLU № 3**

Bakı şəhəri «6» sentyabr 2018-ci il

**İclasın sədri:** Həsən Eyubov

**Katibi:** Məhəmməd Mehdiyev

**İştirak edirlər:** Aksizli mallar üzrə Baş Gömrük İdarəsinin rəisi Həsən Eyubov
"Gömrük Prosedurları və Ödənişləri" şöbəsinin rəisi Aftandil Abdullayev
"Aksiz Markalarına Nəzarət" şöbəsinin rəisi Rauf Əliyev
"Əməliyyat və Təhqiqat" şöbəsinin rəisi Müşviq Mehdiyev

**Gündəlikdə duran məsələ:** «Aksizli mallar üzrə Baş Gömrük İdarəsi tərəfindən Azərbaycan Respublikasının diplomatik xidmət əməkdaşlarının və diplomatik xidmət orqanlarının inzibati-texniki xidmətini həyata keçirən şəxslərin və Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin Diplomatik Nümayəndəliklərin Mühafizə İdarəsinin hərbi qulluqçularının xaricdə işlədikləri dövrdə əldə etdikləri avtonəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsinin təkmilləşdirilməsi haqqında»

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin 08 iyun 2017-ci il tarixli 100/110 nömrəli sərəncamının müzakirə olunması barədə

**Çıxış etdilər:**

**Aksizli mallar üzrə Baş Gömrük İdarəsinin rəisi, İctimai Şuranın sədri – Həsən Eyubov** çıxış edərək bildirdi ki, "Açıq hökümətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı" nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 27 aprel 2016-cı il tarixli 1993 nömrəli Sərəncamının 4.2.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin "Gömrük xidməti ilə biznes subyektlərinin nümayəndələrindən ibarət İctimai Şuralar haqqında" Əsasnamənin təsdiq edilməsi barədə 21 noyabr 2016-cı il tarixli 100/197 nömrəli sərəncamının icrası ilə əlaqədar Aksizli mallar üzrə Baş Gömrük İdarəsinin və biznes subyektlərinin nümayəndələrindən ibarət İctimai Şura yaradılmışdır. İctimai Şuranın iclaslarının 2018-ci ildə Mart, İyun,Sentyabr, Dekabr aylarında keçirilməsi nəzərdə tutulmuşdur və bu gün İctimai Şuranın Sentyabr ayında 3-cü iclasıdır.

Bu gün müzakirə etdiyimiz məsələ «Aksizli mallar üzrə Baş Gömrük İdarəsi tərəfindən Azərbaycan Respublikasının diplomatik xidmət əməkdaşlarının və diplomatik xidmət orqanlarının inzibati-texniki xidmətini həyata keçirən şəxslərin və Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin Diplomatik Nümayəndəliklərin Mühafizə İdarəsinin hərbi qulluqçularının xaricdə işlədikləri dövrdə əldə etdikləri avtonəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsinin təkmilləşdirilməsi haqqında» Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin 08 iyun 2017-ci il tarixli 100/110 nömrəli sərəncamıdır.

**İdarənin "Gömrük Prosedurları və Ödənişləri" şöbəsinin rəisi Aftandil Abdullayev** çıxışında bildirdi ki, bu sərəncam avtonəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsi zamanı Azərbaycan Respublikasının diplomatik xidmət əməkdaşları və diplomatik xidmət orqanlarının inzibati-texniki xidmətini həyata keçirən şəxslər və Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin Diplomatik Nümayəndəliklərin Mühafizə İdarəsinin hərbi qulluqçuları tərəfindən təqdim olunan sənədlərin düzgünlüyünə, gömrük ödənişləri üzrə tətbiq olunan imtiyazlara nəzarət gücləndirilsinə diplomatlar tərəfindən idxal olunan minik avtonəqliyyat vasitələrinin dəyəri xarici ölkəyə ezam olunduqları müddət ərzində aldıqları əmək haqqlarından yüksək olmamasına diqqət yetirilməsi və diplomatlar tərəfindən xarici ölkələrdə alınan avtonəqliyyat vasitələri üçün